AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

20 aprel 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 15 (3629)



100 il

**Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir. Bütün bunları bilirik, dövlət bunu məhz belə qiymətləndirir və xalqımızın əksəriyyəti də DİN-nin cəmiyyətimizdə, dövlətimizdə tutduğu görkəmli mövqeyini qiymətləndirir, bu orqana və onun əməkdaşlarına hörmət, ehtiram bəsləyir.**

*Heydər Əliyev, ümummilli lider*

## Rəsmi xronika

*Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ağır atletika üzrə Avropa çempionu Cansu Bektaşa və ağır atletika üzrə Avropa çempionatının gümüş medal sahibi Qamze Altuna təbrik məktubu ünvanlayıb.*

*Dövlət başçımızın 17 aprel 2023-cü il tarixli sərəncamı ilə Mürsəl Qorxmaz oğlu İbrahimov Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi təyin edilib.*

*Ölkəmizin rəhbəri aprelin 19-da İsrail Dövlətinin xarici işlər naziri, Birgə Komissiyanın həmsədri Eli Koheni qəbul edib.*

# BÖYÜK QAYIDIŞA HAZIRLIQ PLANLI ŞƏKİLDƏ İCRA EDİLİR

Aprelin 18-də Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Neftçala rayonuna səfər ediblər.

Dövlətimizin başçısı və xanımı Neftçala Olimpiya İdman Kompleksinin, Neftçala-Kürkənd-2 nömrəli Mayak avtomobil yolunun, Bankə qəsəbə 2 saylı tam orta məktəbin açılışlarında iştirak edib və Neftçalanın Yenikənd kəndində "Azerbaijan Fish Farm" MMC-nin Nərə Damazlıq Təsərrüfatında yaradılan şəraitlə tanış olublar.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Salyan rayonunda da olublar.

Səfər çərçivəsində Salyan Rayon Mərkəzi Xəstəxanasının 80 çarpayılıq Doğum Evində və Uşaq Poliklinikasında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub, "Azərişıq" ASC-nin Salyan Rəqəmsal İdarəetmə Mərkəzinin və Salyanda "ASAN xidmət" mərkəzinin açılışlarında iştirak ediblər.

Daha sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.




Dövlət proqramlarının icrası nəticəsində bölgələrdə çox böyük genişmiqyaslı quruculuq işlərinin aparılmasını diqqətə çatdıran Prezident İlham Əliyev bildirib ki, bölgələrə səfərləri həm nəzarət, həm də ilk növbədə, insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərinin aparılmasını bölgələrdə təmin edilməsini öyrənmək baxımından bir fürsətdir. Prezident bölgələrin ümumi inkişafının sosial xarakter daşıdığını, eyni zamanda həyata keçirilən layihələrin ölkəmizi gücləndirdiyini deyib.

İşğaldan azad olunan ərazilərdə - Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı və sürətli bərpa-yenidənqurma işləri barədə sualı cavablandıran dövlətimizin başçısı artıq bu ildən məcburi köçkünlərin doğma yurdlarına dönəcəyini bildirib: "700-dən çox ailəni biz bu ilin yay aylarında Laçın şəhərində yerləşdirəcəyik. Eyni zamanda, qanunsuz olaraq məskunlaşma siyasəti aparılan Zabux və Sus kəndlərində işlər gedir. O kəndlərə də biz ilin sonuna qədər keçmiş köçkünləri qaytaracağıq".

Ermənistanla aparılan sülh danışıqlarında Azərbaycanın mövqeyini bəyan edən Prezident rəsmi Bakının tələblərini dilə gətirib: "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Yəni qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalıdır. O da nəyi göstərir? O da göstərir ki, müttəfiq respublikalar arasında olan sərhədlər dövlət sərhədləri sayılır. Beləliklə, bax, bu rəsmi addımı atmaqla Ermənistan rəsmən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan bu gün "Qarabağ Azərbaycandır və nida" sözlərimizi təkrar etməlidir. Çünki əgər "A" deyibsə "B" də deməlidir. Alma-Ata Bəyannaməsini əsas götürüb bunun üzərində sülh müqaviləsinə hazır olduğunu göstərən Ermənistan artıq rəsmən bəyan etməlidir ki, Qarabağ Azərbaycandır!".

Prezident onu da vurğulayıb ki, separatçıların iki seçimi var: ya Azərbaycan Bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər: "Biz separatçıların əsas simalarından olan Serjik Sarkisyanı, Robert Koçaryanı, Seyran Ohanyanı Qarabağdan iti qovan kimi qovmuşuq, onları diz çökdürmüşük..."

Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatında Azərbaycanın bayrağının yandırılmasına da münasibət bildirən Prezident İlham Əliyev qeyd edib ki, bunun arxasında dayanan Ermənistan dövlətidir, Ermənistan hökumətidir, Ermənistanda onilliklər ərzində aparılan anti-Azərbaycan kampaniyasıdır, azərbaycanofobiyadır.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB

**Aprelin 14-ü Daxili İşlər Nazirliyində mülkiyyət əleyhinə cinayətlərin və qeyri-aşkar şəraitdə baş vermiş xırda talamaların qarşısının alınması və açılmasının, prosessual araşdırmalar zamanı qanunçuluğa və uçot-qeydiyyat intizamına riayət edilməsinin, ailə münaqişəsi zəminində törədilən cinayətlərin profilaktikası sahəsində görülən işlərin vəziyyətinə həsr olunmuş Kollegiya iclası keçirilib.**



İclası giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov bildirib ki, möhkəm təməllərə söykənən ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2023-cü ilin I rübündə məqsədyönlü şəkildə davam etdirilib.

Ümumi cinayətlərin açılması 81,9 faiz təşkil edib və 80,3 faizi böyük ictimai təhlükə törətməyən və az ağır növlər olub. Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 9.448 cinayətin 83,5 faizi, o cümlədən keçmiş illərdən bağlı qalmış 95 cinayət açılıb. Qəsdən adam öldürmələr, qəsdən sağlamlığa ağır zərər vurmalar, mənzillərdən edilən oğurluqlar, mal-qara oğurluqları, quldurluqlar, soyğunçuluqlar, xuliqanlıqlar, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilən və odlu silahın tətbiqi ilə baş verən hüquqazidd əməllər 2022-ci ilin 3 ayı ilə müqayisədə azalıb. Ağır və xüsusilə ağır cinayətlərin, şəxsiyyət əleyhinə olanların, onlardan qəsdən adam öldürmə və ona cəhdlərin, qəsdən sağlamlığa ağır zərər vurmaların, habelə quldurluqların açılması yaxşılaşıb. İstintaq prosesində görülmüş tədbirlərlə cinayətlərdən zərər çəkmiş şəxslərə vurulmuş maddi ziyanın 78,5 faizi ödətdirilib.



Həmçinin, yerli və dövlətlərarası axtarışda olan 1.572 təqsirləndirilən şəxs tutulub, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilən tədbirlərlə 170 cinayətkar qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 59 nəfər cinayət məsuliyyətinə cəlb edilib.

Qanunsuz dövriyyədən 1 ton 418 kiloqram, yəni ötən ilin analoji dövrü ilə müqayisədə 354 kiloqram çox narkotik vasitə çıxarılıb. Müxtəlif kriminal əməllər törətmiş 4 min nəfər məhkəmə məsuliyyətinə verilib.

Ölkədə keçirilmiş 183 respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirdə, habelə işğaldan azad edilmiş ərazilərdə daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti hüquq qaydasının təmini vəzifələrini tam yerinə yetirib.

*Ardı 2-ci səhifədə.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ KOLLEGİYA İCLASI KEÇİRİLİB

*Əvvəli 1-ci səhifədə.*

Kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə 1.258 vətəndaşın qəbulu həyata keçirilərək qaldırılan məsələlərin əksəriyyəti yerində həll edilib, 23.042 vətəndaş müraciəti hərtərəfli və obyektiv araşdırılıb, təşəbbüskarlar hüquqları izah edilməklə yazılı məlumatlandırılıb. Nazirliyin “102” Xidmətinə və qaynar xətlərinə daxil olan, eləcə də sosial şəbəkələrdə yayımlanan hər bir şikayətə çevik reaksiya verilib, insanların qanuni mənafelərinin, hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi təmin edilib.

Kollegiyada bayır xidmətinin fəaliyyətinin təşkili və vətəndaşların narazılığını doğuran hüquqpozmaların qarşısının alınması üzrə verilmiş tapşırıqların icrası barədə nazir müavini, polis general-mayoru Oqtay Kərimov, gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə təşviq edilməsi məsələsi ilə əlaqədar Polis Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov, gündəlikdəki məsələlərlə bağlı Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov, Baş İstintaq və Təhqiqat İdarəsinin rəisi, polis general-mayoru Emil Usubov, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Sərdar Səfərov məruzə ediblər.

Müzakirə olunan məsələlər ətrafında bir sıra ərazi polis orqanlarının rəisləri çıxış edərək görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxış ediblər.

Kollegiya iclasına yekun vuran nazir, general-polkovnik V.Eyvazov qanunla müəyyən edilmiş vəzifələrin və qarşıya qoyulmuş tapşırıqların cari ilin birinci rübündə bütövlükdə layiqincə yerinə yetirildiyini, cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi sahəsində əldə olunmuş müsbət nəticələrin inkişaf etdirildiyini, şəxsi heyətin xidməti vəzifələrin icrasını böyük əzmlə həyata keçirdiyini, xüsusən respublikada və onun paytaxtı Bakı şəhərində ağır və xüsusilə ağır cinayətlərin açılmasında yüksək peşəkarlıq, qətiyyət və operativlik göstərmiş Nazirliyin və ərazi polis qurumlarının 136 əməkdaşının mükafatlandırıldığını diqqətə çatdırıb.

Eyni zamanda, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin səlahiyyətinə aid vəzifələrin peşəkarlıqla yerinə yetirilməsinin və vətəndaş məmnunluğunun təmin edilməsinin vacibliyini nəzərə çatdıraraq bu istiqamətlərdə fəaliyyətin səmərəliliyinin artırılması, ümumi işə mənfi təsiri olan halların qarşısının alınması ilə bağlı vəzifələri müəyyən edib, eləcə də tapşırıq və tövsiyələrini verib.

Nazir, general-polkovnik Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının şəxsi heyəti bundan sonra da qanunvericiliklə müəyyən edilmiş funksiyaları layiqincə həyata keçirəcək, ölkədə sabitliyin, əmin-amanlığın davamlılığının təmin edilməsi üçün qüvvə və bacarığını əsirgəməyəcəkdir.




# NAZİR SABİRABADDA VƏTƏNDAŞLARI QƏBUL EDİB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov aprelin 17-də Sabirabad Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Nazir əvvəlcə Sabirabad şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında İmişli, Beyləqan, Füzuli, Xocavənd, Saatlı və Sabirabad rayonlarından qəbula gələn 132 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həll edilib.

# Taleyimizi etibar etdiyimiz şəxsiyyət



***Xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi nəinki ölkəmizdə, onun hüdudlarından kənarda da böyük təntənə ilə qeyd olunur.***



**Bu əlamətdar tarixlə əlaqədar aprelin 17-də Bakı Şəhər Baş Polis İdarəsində də tədbir keçirilib.** Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Dövlət himni səsləndirilib.

**Tədbiri giriş sözü ilə açan baş idarənin rəis müavini, polis general-mayoru Vüqar Ələkbərov** qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan Heydər Əliyevin demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən danışıb. O, qeyd edib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində ölkəmiz hərtərəfli inkişaf edib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm qələbəmizi şərtləndirib, nəticədə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə düşmən tapdağında olan ata-baba torpaqlarımız işğaldan azad edilib.

Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Azərbaycanın yeni tarix şöbəsinin müdiri Hacı Həsənov isə ümummilli liderin müəllifi olduğu azərbaycançılıq ideologiyasına diqqət çəkərək xalqımızı bir məfkurə ətrafında məhz ulu öndərin birləşdirdiyini, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən dövlətimizin onun təməllərini atdığı müdrik siyasi strategiya sayəsində artıq dünyada sözü keçən, nüfuzlu, torpaqlarını işğaldan öz gücünə azad etmiş qüdrətli dövlətə çevrildiyini vurğulayıb.

**Tədbirin sonunda “Heydər Əliyev və 44 günlük Zəfər yolu” adlı sənədli film nümayiş olunub.**

*C.Natiq*

# BİZƏ YAZIRLAR...

“Təhlükəsizliyimizin etibarlı qorunmasında daxili işlər orqanları əməkdaşlarının böyük xidməti var. Bu gün Azərbaycan Polisi əsl peşəkarlıq nümayiş etdirməklə yanaşı, humanist vətəndaş mövqeyi sərgiləyir. Belə ki, axşam saatlarında taksi ilə evə qayıdan zaman avtomobildə nasazlıq yarandı və yolun ortasında qaldıq. Sürücü avtomobildən düşərək çarə axtarırdı ki, elə bu an köməyimizə Post Patrul Xidməti əməkdaşları gəldi. Avtomobildəki nasazlığı aradan qaldırdılar və bizi yolda qoymadılar”. Bu fikirlər **paytaxt sakini Azər Hacıyevin** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubundandır.

**Cavid İsmayılov** müraciətinə Bakı şəhər Baş Polis İdarəsində operativ baxıldığına və probleminin həllini tapdığına görə minnətdarlığını ifadə edir.

**Paytaxt sakini Kənan Quliyev** ticarət mərkəzlərinin birində mobil telefonunu itirməsilə bağlı polisə müraciət etdiyini, qısa zaman kəsiyində tapıldığını yazır. O, göstərdikləri köməkliyə görə Nərimanov Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Polis veteranı Telman İsrafilov:** “Övladım Polis Akademiyasında təhsil alır. Bir valideyn olaraq kursantlar üçün Akademiyada yaradılan şəraitdən və təhsilin səviyyəsindən çox raziyam. Peşəkar polis zabitlərinin yetişməsində bu təhsil ocağının müəllim heyətinin də mühüm rolu var. Bütün bunlara görə DİN rəhbərliyinə təşəkkürümü bildirirəm”.

**Sənan Əliyev** müraciətinə obyektiv şəkildə baxılaraq müsbət həllini tapmasında göstərdikləri köməkliyə görə Sabunçu RPİ Dövlət Yol Polisi Şöbəsinin əməkdaşlarının xidməti fəaliyyətini təqdir edir.

**Bir qrup kənd sakini adından Qoşqar Baxşəliyev** Qobustanda narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində aparılan qətiyyətli mübarizə tədbirlərindən, eyni zamanda oğurluq faktlarının azalması ilə bağlı Abşeron RPİ Qobu Polis Bölməsinin əməkdaşlarının peşəkar xidmətindən yazır.

**Vətəndaş Mehriban Yusifova** müraciətinə operativ baxılaraq onu narahat edən məsələnin həllini tapmasında göstərdikləri köməkliyə görə Yasamal RPİ 26-cı Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Şirvan şəhər sakini Arif Qafarzadə** evindən külli miqdarda pulunun yoxa çıxması ilə bağlı müraciətinə operativ şəkildə baxılaraq, cinayətin üstünün isti izlərlə açılmasında göstərdikləri köməkliyə görə Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşlarına təşəkkürünü bildirir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Əlahiddə Çevik Polis Alayında ulu öndərin xatirəsi anılıb





**Aprelin 19-da Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan tədbir keçirilib.**

Əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

**Tədbiri giriş sözü ilə açan Əlahiddə Çevik Polis Alayının komandiri, polis polkovniki Ramil Piriyev** ulu öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin, iqtisadi-siyasi əsaslarının, dövlətçilik ənənələrinin möhkəmləndirilməsində və inkişafında, hüquqi, demokratik və dünyəvi dövlət kimi imicinin yüksəldilməsindəki əvəzsiz rolundan danışıb, respublika daxili işlər orqanlarının formalaşmasında, təkmilləşdirilməsində, ölkədə cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini işinin yüksək səviyyədə təşkilində göstərdiyi müstəsna xidmətlər barədə ətraflı məlumat verib.

Bildirilib ki, şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və xalqımızın parlaq gələcəyinə həsr edən ulu öndər dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq tariximizdə əbədiyaşarlıq qazanıb.

Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri, professor Ədalət Qasımov bildirib ki, ulu öndərin əsasını qoyduğu iqtisadi inkişaf strategiyası ilə ölkəmiz firavan gələcəyə qədəm qoydu, həyata keçirilən iqtisadi tədbirlər Azərbaycana beynəlxalq aləmdə etibar qazandırdı. Məqsədyönlü siyasət əksər iri beynəlxalq şirkətlərin, xarici investorların diqqətini ölkəmizə yönəltdi. Ulu öndərin gərgin əməyinin və möhkəm iradəsinin bəhrəsi olan "Əsrin müqaviləsi"nin imzalanması isə Azərbaycanın bir müstəqil dövlət kimi beynəlxalq arenadakı mövqeyini möhkəmləndirdi.

Tədbirin sonunda "Heydər Əliyev və 44 günlük Zəfər yolu" adlı sənədli film nümayiş olunub.

*Natiq Cavadov,*
*polis mayoru*

# Beynəlxalq elmi-praktik konfrans keçirilib



DİN-in Polis Akademiyasında "Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin cinayət-hüquqi, cinayət-prosessual və kriminalistik problemləri" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfransı açıq elan edən rəis, polis general-mayoru Canpolad Daanov konfransın əhəmiyyətini xüsusi qeyd edərək ölkəmizdə uşaq hüquqlarının qorunması ilə bağlı aparılan məqsədyönlü islahatların bu sahədə etibarlı sosial və hüquqi mexanizmlərin yaradılmasına təkan verdiyini vurğulayıb.



Qeyd olunub ki, beynəlxalq konfransın keçirilməsində əsas məqsəd aktual və problemli məsələlərin araşdırılması və həlli yollarının müəyyən edilməsi, nəzəri biliklərin praktiki bacarıqlarla vəhdətinə nail olunması, beynəlxalq təcrübənin öyrənilməsi və əlaqələrin genişləndirilməsi, hüquqi, sosial-psixoloji müstəvidə olan problemlərə diqqətin artırılmasıdır.

Sonra Azərbaycan Respublikası Milli Məclisin Ailə, Qadın və Uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Komitənin Hüquq təminat şöbəsinin müdiri Taliyə İbrahimova, DTX-nın Heydər Əliyev adına Akademiyasının rəisi vəzifəsini müvəqqəti icra edən, polkovnik Elşad Nəsirov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini, baş ədliyyə müşaviri Talıb Cəfərov, Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov, BDU-nun Hüquq fakültəsinin "Cinayət prosesi" kafedrasının müdiri, professor Firuzə Abbasova konfransda çıxış ediblər.

Tədbirdə Türkiyə, Rusiya Federasiyası, Belarus, Qazaxıstan və Moldova Respublikalarının elm və təhsil müəssisələrinin nümayəndələrinin iştirakı maraqla qarşılanıb, ölkə xaricindən 20-dən çox elmi məqalə konfrans materiallarına daxil edilib.

Müzakirələrlə davam edən tədbirdə iştirakçılar bu sahə üzrə araşdırmaların mütəmadi davam etdirilməsini, iştirakçı qurumlar arasında əməkdaşlığın daha da intensivləşdirilməsini önə çəkiblər.

Sonda beynəlxalq elmi-praktik konfransın bəyannaməsi oxunub, iştirakçılara nəfis şəkildə çap edilmiş konfrans materialları və sertifikatlar təqdim olunub.

# ÖTƏN ÜÇ AYDA...

## *Nəticələr qənaətbəxş, vətəndaşlar da razıdır...*

Paytaxtımızda ən çox istifadə edilən nəqliyyat vasitələrindən biri də metrodur. Statistik göstəricilərə görə gün ərzində 600-700 min insan metrodan istifadə edir. Yerin üstündə olduğu kimi, yerin altında da vətəndaşların təhlükəsizliyini təmin etmək, habelə itirilmiş və ya unudulmuş əşyaların tapılaraq sahiblərinə qaytarılması olduqca vacib və önəmli məsələ olduğundan Metropolitendə Polis İdarəsinin əməkdaşları vəzifələrini layiqincə yerinə yetirir, hər hansı problemlə bağlı müraciət edənləri dinləyib həllində yardımçı olurlar.



Elə bu günlərdə Metropolitendə Polis İdarəsinə "28 May" stansiyasından üzü "Gənclik" stansiyasına doğru hərəkətdə olarkən naməlum şəraitdə cüzdanını itirməsi ilə bağlı müraciət edən Səməd Səmədzadə polisdən kömək istəyib. Adıçəkilən stansiyalarda xidmət aparan əməkdaşlara bu barədə məlumat verilib. Qısa zaman kəsiyində vətəndaş S.Səmədzadəyə məxsus cüzdan tapılaraq rəhbərliyə məruzə edilib.

Vətəndaş İdarəyə dəvət olunub və cüzdanı ona qaytarılıb. O, asayiş keşikçilərinə minnətdarlığını ifadə edib.

Yeri gəlmişkən, cari ilin yanvar ayının 1-dən aprelin 13-dək İdarə əməkdaşları tərəfindən tapılmış 129 sahibsiz əmlakın, pulun, eləcə də qiymətli əşyaların və sənədlərin əksəriyyətinin sahibi müəyyənləşdirilərək təhvil verilib.

*Ə.Teymur*

# Problem həllini tapdı

***Yollarda təhlükəsizliyin təmin olunmasında, tıxacların aradan qaldırılmasında, eləcə də sürücülərin rahat, maneəsiz və sağ-salamat mənzil başına çatmasında Dövlət Yol Polisi əməkdaşlarının əməyi danılmazdır.***

Həmkarlarımız aidiyyəti qurumlarla birgə nəqliyyat vasitələrinin və piyadaların təhlükəsiz hərəkətinə maneə yaradan halların - qanunsuz parklanmaların, dayanma və ya durmaların qarşısını alır, izahat işləri aparır, reydlər keçirərək həmin pozuntuları törədənlər barəsində müvafiq tədbirlər görürlər. Görülən işləri təqdirəlayiq hesab edənlər DİN rəhbərliyinə təşəkkür məktubları ünvanlayıb, minnətdarlıqlarını ifadə edirlər.

Bakı şəhər sakini Vüsal Talıbovun təşəkkür məktubu da bu qəbildəndir. O, bir müddət öncə yaşadığı Kürdəxanı qəsəbə sakinləri adından Sabunçu RPİ Dövlət Yol Polisi Şöbəsinə müraciət ünvanlayaraq hərəkət iştirakçılarının təhlükəsizliyini təmin etmək üçün qəsəbə ərazisində daha bir neçə radarın quraşdırılmasını xahiş edib.

Müraciətə dərhal reaksiya verildiyini deyən **DYPŞ-nin rəisi, polis polkovnik-leytenantı Hafiz Məmmədov** bu məqsədlə V.Talıbovun qeyd etdiyi əraziyə baxış keçirildiyini və sözügedən qəsəbədə daha təhlükəli ərazilər hesab olunan yerlərdə əlavə 3 radarın quraşdırıldığını diqqətimizə çatdırdı.

Ümumiyyətlə, bu kimi müraciətlərin həm də vətəndaş-polis münasibətlərinə töhfə verdiyini bildirən digər müsahibimiz-DYPŞ-nin inzibati təcrübə üzrə baş inspektoru, polis mayoru Elmar Əbilov istənilən müraciətə anında reaksiya verildiyini, səlahiyyətləri daxilində olanların dərhal, operativ şəkildə icra olunduğunu qeyd etdi. O, təhkim olunmuş inzibati ərazidə piyadaların təhlükəsizliyi istiqamətində, eləcə də kobud qayda pozuntularına yol verən sürücülər barəsində bütün zəruri tədbirlərin həyata keçirildiyini də vurğuladı.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Əmanətin etibarlı keşikçiləri



**Nəsimi Rayon Mühafizə İdarəsinin əməkdaşları qorunan obyektdən oğurluğa cəhd edən şübhəli şəxsi "iş başında" yaxalayıblar.** Hadisə aprelin 13-də gecə saatlarında rayon ərazisindəki marketlərin birində baş verib.

**Həmin vaxt polis serjantları Elmin Rəhimov və Elnur Məmmədzadə** xidmət apardıqları əraziyə nəzarət edərkən, mərkəzləşdirilmiş mühafizə məntəqəsi vasitəsilə qorunan marketin açıq havadakı anbarına bir nəfərin hasarı aşıb daxil olduğunu görüblər.

Dərhal hadisə barədə İdarənin Növbətçi Hissəsinə və ərazi üzrə Nəsimi RPİ-nin 19-cu Polis Şöbəsinə məlumat verən polis əməkdaşları şübhəli şəxsin qaçmasına imkan verməyərək, onu elə anbarın içində yaxalayıblar. Polis Şöbəsində şübhəli şəxsin əvvəllər də oğurluq əməlinə görə məhkum olunmuş Cəlilabad rayon sakini S.Həmidov olduğu müəyyən edilib.

Hazırda araşdırılması 19-cu PŞ-də davam etdirilən bu hadisə, eləcə də hesabat dövrünün nəticələri barədə qəzetimizə məlumat verən **Rayon Mühafizə İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı Sahib Cəfərli** şəxsi heyətin fiziki və peşə hazırlıqlarının artırılmasına yönələn tədbirlərin müsbət nəticələrini gördüklərini söylədi: "Əməkdaşlarımız oğurluğa cəhdlərin, digər cinayət hadisələrinin qarşısının alınmasında və yaxud xidmət zamanı ictimai asayişin qorunmasında xüsusi peşəkarlıq göstərirlər. Son hadisə zamanı da ərazidə olan polis nəfərləri eyni bacarıqları nümayiş etdiriblər".

Qeyd edək ki, cari ilin 3 ayı ərzində idarənin əməkdaşları qorunan obyektlərdə - bu son hadisədən başqa - 2 oğurluq hadisəsinin qarşısını alıb, 2 şübhəli isə oğurluq törətdiyi zaman yaxalanıblar.

Bu kimi cinayətləri önləmək üçün əmlak sahibləri ilə mütəmadi görüşlər keçirdiklərini qeyd edən rəis müavinin sözlərinə görə, aparılan maarifləndirici-izahedici işlər obyekt və mənzillərin mühafizəyə qəbul edilməsinə təsirsiz ötüşmür. Ümumən İdarə tərəfindən hazırda 1375 obyekt və mənzil qorunur. Bu ilin üç ayında mühafizəyə qəbul edilmə ilə bağlı 57 müqavilə imzalanıb ki, bu, ötən müvafiq dövrlə müqayisədə 12 artıq obyekt deməkdir.

Polis polkovnik-leytenantı onu da vurğuladı ki, maarifləndirmə işində onlara Nəsimi Rayon Polis İdarəsinin əməkdaşları yaxından kömək edirlər. Xüsusən bölmə və sahə rəisləri ilə birgə iş aparılır. Nəticə etibarı ilə müqavilə bağlamış vətəndaşların əmlakları təhlükəsizlik baxımından tam sığortalanmış olur.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ !

## 2023-cü il üçün DİN-in Polis Akademiyasında fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbula dair elan

Azərbaycan Respublikası DİN-in Polis Akademiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatlarının 2023-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul planları"na və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının 2021-ci il 26 noyabr tarixli Q17-001-21 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına daxili işlər orqanları əməkdaşlarının qəbulu Qaydası"na əsasən 2023-cü il üçün fəlsəfə doktoru hazırlığı üzrə daxili işlər orqanları əməkdaşlarının doktorantura və dissertanturaya aşağıda göstərilən ixtisaslar üzrə qəbul elan edir.

Əməkdaşların sənədlərinin qəbulu və tədris işlərinin tərtibatı onların xidmət yeri üzrə həyata keçirilir.

**Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul olunmaq istəyən əməkdaş sənədlərin qəbulu üçün 11 aprel – 11 iyun 2023-cü il tarixlərində əsaslandırılmış raportla Azərbaycan Respublikasının daxili işlər nazirinə müraciət edir.**

Raporta aşağıdakı sənədlər əlavə edilir:

-şəxsiyyət vəsiqəsinin surəti;

- tərcümeyi-hal;

- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);

- xarici dil bilikləri üzrə beynəlxalq sertifikatın surəti (IELTS, TOEFL, TestDaf, DELF, DALF, STANAG - əgər varsa);

- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat.

Bütün imtahanların məzmunu (proqramı) Akademiyanın rəsmi saytında yerləşdiriləcək.

Qəbul qaydaları haqqında ətraflı məlumatı Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsindən və rəsmi internet səhifəsindən (www.pa.edu.az) əldə etmək olar.

**Daha ətraflı məlumatı Polis Akademiyasının +99412 454-13-85; +99412 454-34-57 nömrəli telefonları vasitəsilə ala bilərsiniz.**

## Mükafatlı sual rubrikası



Tarixə böyük bir şəxsiyyətin adı ilə düşmüş bu təhsil ocaqlarının tədris planına nəzər saldıqda, buraya Azərbaycan, fars, fransız dilləri, ədəbiyyat, riyaziyyat, fizika və digər fənlərin daxil edildiyini görmək olar. Bu məktəblər şah üsuli-idarəsi və mürtəce ruhanilər tərəfindən bağlanmasına baxmayaraq, XIX əsrin sonlarında, XX əsrin əvvəllərində Qacarlarda yeni tədris üsulunun yayılmasında mühüm rol oynayıb. Bu məktəblərin Azərbaycan üçün ən əhəmiyyətli məqamı isə Səfəvilər dövründən sonra Cənubi Azərbaycanda ana dilimizdə açılan ilk milli məktəb idi.

**Söhbət hansı məktəblərdən gedir?**

Vatsap: +99455-875-16-39

## Qalibimiz hərbi qulluqçudur



Ötən rubrikamızda repressiyaların qurbanı olan ziyalılarımıza, ictimai xadimlərə həsr olunan ilk kitabın hansı və müəllifinin kim olduğunu soruşmuşduq. **DİN Daxili Qoşunların Biləcəri Hərbi Hissəsinin giziri Mahir Məmmədov** sözügedən əsərin "Qırmızı terror", müəllifin isə tarixçi-alim Ziya Bünyadov yazmaqla qalib olub.

Qeyd edək ki, 1937-1939-cu illərdə xalqımızın bir çox görkəmli elm, incəsənət və mədəniyyət xadimləri stalinizmin amansız repressiyalarının qurbanı olub. Z.Bünyadov "Qırmızı terror" kitabında bu şəxsiyyətlərin hər birinin uydurma "cinayət işi" barədə ayrıca oçerk yazıb, yaradıcı ziyalıların saxta dəlillər əsasında məhkum olunduğunu inandırıcı surətdə göstərib.

Hərbçimizi təbrik edir, şərəfli xidmətində uğurlar arzulayırıq.


## XƏZRİ sizi gözləyir



**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 31 may 2023-cü il tarixədək qiymətləri**

(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

**3.** Bir günlük xərc tək polis əməkdaşı üçün 25,00 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 75,00 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 100,00 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 125,00 manat təşkil edir.

**4.** 6 yaşadək uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, minifutbol, voleybol və uşaq meydançalarından istifadə daxildir.

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. "Koroğlu" metrostansiyasından Mərkəzə 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+994 12) 554-47-60;**
**Mobil telefon: (+994 50) 291-15-51; (+994 55) 291-15-51;**
**Faks: (+994 12) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**Veb-sayt: www.khazri.mia.gov.az**
**E-poçt: info@khazri.mia.gov.az**

**31 may 2023-cü il tarixədək**

**(2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 200 manat, bir nəfər tək qaldıqda 150 manat)**

| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
|---|---|---|
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 25,00 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 50,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 100,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |


## İDMAN XRONİKASI



### Bakı Dünya Kubokuna ev sahibliyi edəcək

Bakı Atıcılıq Mərkəzində mayın 8-dən 15-dək keçiriləcək güllə atıcılığı üzrə Dünya Kubokunda 61 ölkədən 605 idmançının iştirakı planlaşdırılır. Atletlərlə yanaşı, yarışlara 300 nəfər texniki heyət də qatılacaq.

Builki Dünya Kubokunda atletlər 10 növdə 36 medal uğrunda yarışacaqlar.

Yarışlar peyk vasitəsilə birbaşa translasiya ediləcək və Beynəlxalq Atıcılıq İdman Federasiyasının rəsmi səhifəsində yayımlanacaq.

Qeyd edək ki, ötən il Bakıda keçirilmiş atıcılıq üzrə Dünya Kubokunda həm güllə, həm də stend atıcılığı üzrə dünyanın 66 ölkəsindən 700 atleti iştirak etmişdi.

Azərbaycan Atıcılıq Federasiyasının baş katibi Emin Cəfərov Azərbaycan Atıcılıq Federasiyası və Bakı Atıcılıq Mərkəzi Dünya Kubokuna tam hazır olduğunu və könüllülərin də cəlb edildiyini bildirib.

### Kursantlarımız qalib oldular

***Bu günlərdə Fövqəladə Hallar Nazirliyinin Akademiyasında xüsusi təyinatlı ali təhsil müəssisələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş şahmat yarışı keçirilib.***

***Tədbirdə Polis Akademiyası ilə yanaşı Dövlət Təhlükəsizliyi Xidmətinin, Milli Aviasiya və Fövqəladə Hallar Nazirliyinin Akademiyalarının, həmçinin Heydər Əliyev adına Ali Hərbi Məktəbin komandaları iştirak edib.***

***Komandaların gərgin mübarizəsinin nəticəsi olaraq Polis Akademiyası birinci, Fövqəladə Hallar Nazirliyinin Akademiyası ikinci, Milli Aviasiya Akademiyası isə üçüncü yerə layiq görülüb.***

***Qalib komandalara medal və qiymətli hədiyyələr təqdim edilib.***

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Dələduz hava limanında saxlanıldı

Kanadaya viza təşkili və işə düzəltmək adıyla müxtəlif şəxslərin etibarından sui-istifadə edən Telman Elmir və onun yaxın qohumlarını da toruna salıb xeyli miqdarda pulların mənimsəyib. Bir müddət sonra o, zərərçəkmişə vizaların alınmasında çətinlik olduğunu bildirib. Pulunu geri istəyəndə isə Elmirə gözləməsini deyib. Aldadıldığını anlayan vətəndaş "102" Xidməti-zəng Mərkəzinə dələduzluqla üzləşdiyi barədə məlumat verib.

Faktla bağlı Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Şöbəsinin təhqiqatçısı, polis mayoru Valeh Abdullayev "Polis"in suallarını cavablandırarkən bildirdi ki, Elmir Verdiyevin dələduzluqla üzləşdiyi barədə müraciəti daxil olan kimi, o şöbəyə dəvət olunub, ərizəsi alınıb. Zərərçəkmiş viza görə Telman 14 min ABŞ dolları verdiyini bildirib. Elmirin qardaşı Elnur da izahatında Qobudakı 8 sot torpağını sataraq 11 min 500 manat ödədiyini qeyd edib. Bundan əlavə, Elmirin yaxın qohumlarını da işə düzəltmək adıyla 35 min ABŞ dolları alıb.

İlkin araşdırma zamanı məlum olub ki, özünü Telman kimi qələmə verən şəxs əslində, Quba rayon sakini İsmayılzadə Pərviz Telman oğludur.

Keçirilən əməliyyat-axtarış tədbirləri ilə dələduzluqda şübhəli bilinən Pərviz İsmayılzadə Türkiyə Respublikasından Bakıya qayıdarkən Heydər Əliyev adına Beynəlxalq Hava Limanında saxlanılıb və istintaqa təhvil verilib.

Dindirilmə zamanı o, törətdiyi əməli etiraf edib. Faktla bağlı Nəsimi RPİ-də cinayət işi açılıb, araşdırmalar aparılır.

Yeri gəlmişkən, İkinci Qarabağ müharibəsi qazisi Elmir Verdiyev DİN rəhbərliyinə etdiyi müraciətə operativ baxılmasına, göstərilən diqqət və qayğıya görə təşəkkür məktubu da ünvanlayıb.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*


POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.



Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.



REDAKTOR: HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik